

# "Şahdəniz-2" çərçivəsində Türkiyəyə qazın nəqlinə başlanıb

**"Şahdəniz" konsorsiumu - BP (operator), SOCAR, TPAO, "Petronas", "LUKoyl", NİCO və SGC, "Şahdəniz-2" layihəsi çərçivəsində Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinin başlandığını elan edib. Bu mühüm hadisə "Şahdəniz-2"nin təhlükəsiz qaydada, qrafikə uyğun, büdcə daxilində həyata keçirildiyini və Türkiyəyə qaz həcmlərinin nəqlinin planlaşdırıldığı vaxt başlandığını göstərir.**

"Şahdəniz-2" ilk dəfə olaraq Xəzər qazını Avropa bazarına çıxaracaq yeni "Cənub qaz dəhlizi"nin başlanğıc nöqtəsidir. Ən yüksək sabit hasilat zamanı bu layihə çərçivəsində ildə 16 milyard kubmetr qaz çıxarılacağı gözlənilir. Beləliklə, "Şahdəniz"in ümumi hasilatı birinci mərhələ də daxil olmaqla ildə 26 milyard kubmetr qaz və gündə 120 min barel kondensata çatacaq.

"Şahdəniz-2" çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur və bu da BP şirkətinin indiyədək operatoru olduğu ən iri sualtı infrastrukturdur.

Təxminən 28 milyard ABŞ dolları həcmində investisiya qoyulan bu layihə ümumilikdə planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Bakı yaxınlığında yerləşən Səngəçal terminalındakı əsaslı genişləndirmə işlərindən ibarətdir. Buraya eləcə də Azərbaycan ərazisində 428 kilometr uzunluğunda yeni boru kəmərini, Gürcüstanda 59 kilometr uzunluğunda yeni boru kəmərini və iki yeni kompressor stansiyasını əhatə edən Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi daxildir.

Türkiyəyə "Şahdəniz-2" layihəsi çərçivəsində qazın nəqlinin başlanması münasibətilə SOCAR-ın prezidenti Rövnəq Abdullayev demişdir: "TANAP vasitəsilə kommersiya məqsədli qazın nəqli "Cənub qaz dəhlizi"nin reallaşmasında mühüm tarixi hadisədir. Bu meqalayihənin mürəkkəbliyinə baxmayaraq, biz eyni vaxtda Azərbaycanda, Gürcüstanda və Türkiyədə "Cənub qaz dəhlizi"nin seqmentlərinin əlaqələndirilməsinə və istismara verilməsinə nail olduq. Bu işləri qrafikə uyğun və əvvəl gözlədiyimizdən daha aşağı xərclə reallaşdıra bildik. "Şahdəniz-2" üçün platformalar və strukturlar SOCAR-ın törəmə şirkətləri tərəfindən tikilib və bütün tikinti işləri Azərbaycanda aparılıb ki, bu da ölkəmiz və region üçün böyük bir nailiyyətdir".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz da bu hadisəni yüksək dəyərləndirmişdir: "Türkiyəyə ilk kommersiya qazının 2018-ci ildə nəql edilməsi bu iri layihənin başlanğıcında vəd etdiyimiz mühüm hədəfdir. Regionun hökumətləri və "Şahdəniz" konsorsiumundakı tərəfdaşlarımızla birlikdə işləyərək biz bu hədəfi təhlükəsiz şəkildə, qrafikə uyğun və büdcə daxilində gerçəkləşdirdik. Bu, bizim yüksək keyfiyyətli layihələri birgə uğurla həyata keçirmək qabiliyyətimizi nümayiş etdirir. Operator olaraq, BP çox məmnundur ki, Azərbaycanda və bütün regionda uzunmüddətli tərəfdaşlığımız bu dünya miqyaslı layihəni uğurla həyata keçirmək və Türkiyədəki istehlakçılar qarşısında öhdəliklərimizi yerinə yetirmək üçün imkan yaradıb. Ümid edirik ki, biz bu müstəsna nailiyyətimizin davamı olaraq növbəti hədəfimizə - 2020-ci ildə Avropaya qaz nəqlinə nail olmaq üçün Azərbaycan hökuməti, SOCAR və digər tərəfdaşlarımızla sıx işləyəcəyik."

Xatırladaq ki, 1999-cu ildə kəşf olunmuş "Şahdəniz" yatağı təxminən 1 trilyon kubmetr qaz və 2 milyard barel kondensat ehtiyatına malikdir. "Şahdəniz-1"dən 2006-cı ildə hasilata başlanmışdır. Hazırda birinci mərhələ çərçivəsində ildə hasil olunan 10 milyard kubmetr qaz Azərbaycan, Gürcüstan və Türkiyənin təchizatına yönəldilir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*